relatives, children. Respect of law of parents, protect them that is so great achievement of children.

In his various works Nizami Gancavi noted that, the main idea here is patriotism. He told about this issue as so protective problem on parents care, also children debts. He deseribed it based on national samples, folklore repect issues.

Also, in this scientific article researched such problems as relations between son and father, daughter and mother and these moral elements are the basic motives in poems of this great poet and thinker.

***Rəyçi: f.ü.f.d.Quliyeva Ruziyə Zaman qızı***

***AMEA Gəncə Bölməsi Ədəbiyyat şöbəsinin 18.06.2021-ci il tarixli iclasının 03 saylı protokolu. Daxil olma tarixi 25.06.2021-ci il***

***Daxil olma tarixi 22 sentyabr 2021-ci il***

**UOT:37.**

# ÖZÜNÜTƏHSİLİN PEDAQOJİ PROBLEM RAKUSUNDAN TƏHLİLİ

***Dos.Bayramova Ziyafət Vilayət qızı, Abdullayeva Şahanə Arzu qızı***

***Gəncə Dövlət Universiteti***

***ziyafet@bk.ru***

**Xülasə:** *XXI əsr informasiya texnologiyaları dövrü kimi səciyyələndirilmişdir. Şagird qarşısında duran başlıca tələb informasiyaların müxtəlif mənbələrdən alınması önəmli deyil. Burada müstəqil biliklərin əldə edilməsi vacib hesb edilir.*

*Bu gün təhlis alan tərəfindən keçmişin sosial təcrübəsinin əldə edilməsi şəxsiyyətin müasir şəraitdə özünütəsdiqinə ziddir. Ona görə də müasir təhsilin modernləşdiyi zamanda başlıca vəzifələrdən biri yeni dünyanı və şəraiti tam dərk etməyə bacaran, təbiət qanunları və qanunauyğunluqları ilə ayaqlaşan özünütəhsil səriştəsinə malik şəxsiyyətin formalaşdırılmasıdır. Qarşıya qoyulmuş yeni vəzifələr insandan fasiləsiz təhsil almaqla yanaşı özünütəhsil qabiliyyətlərini də tələb edir.*

*Özünütəsil – şəxsiyyətin yüksək dərəcədə özünü təqdimatı qismində çıxış edir. Burada adekvat şəkildə insanın fiziki və mənəvi qüvvələri üzə çıxır. Bu elə bir fəaliyyət növüdür ki, burada insan özünüinkişafı yalnız mənəvi baxımdan təmin edilməsinə nail olmur, həm də subyektiv əhəmiyyət kəsb edən maddi dəyərlər yaradır.*

**Açar sözlər:** özünütəhsilin məqsədləri, özünütəhsil fəaliyyəti, şəxsiyyətin inkişafı, əqli fəaliyyət, peşə bazası

**Ключевые слова:** цели самообразования, самообразовательная деятельность, развитие личности, умственная деятельность, профессиональная база.

**Key words:** goals of self-education, self-educational activity, personality development, mental activity, professional base.

Tədqiqatçıların bir çoxu özünütəhsilin başlıca məqsədi şəxsiyyətin intellektual blokunun formalaşması, təhsilləndirici funksiyası olaraq vurğulayırlar. Özünütəhsilin məqsədləri müxtəlif ola bilər. Lakin nəticə etibarı ilə mədəni, ictimai-siyasi, elmi dairə çərçivısində biliklərin mənimsənilməsinə gətirib çaxarır. Daim idrakı fəaliyyəti gücləndirməklə təqdim edilmiş materialın müstəqil mənimsənilməsi, elmi mətn üzərində təhlilin aparılması, analiz, sintez, ümumiləşdirmə kimi proseslərin həyata keçirilməsi nəticəsində insanın əqli fəaliyyətinin mədəni səviyyəsinin yüksəldilməsinə gətiri çıxarır.

Yalnız müstəqil sərbəst düşünülmüş deyil, özünütəhsilin həll edəcək vəzifələrindən biri də qeyri – standart sutuasiyalarda vəziyyətə uyğun hərəkət etmək, yeni fəaliyyət çərçivəsində düzgün seçimlər etmək, səriştəni formalaşdırmaqdır.

Özünütəhsil fəaliyyətinin strukturu aşağıdakı elementlərdən ibarət olmuşdur: tələbatlar, motivlər, məqsədlər, fəaliyyət obyektləri, özünütəhsil subyekti, nailiyyətə çatmaq üçün vasitələr, fəaliyyət.

B.F.Rayski (1978) özünütəhsili idraki tələbatla əlaqələndirir. O, qeyd edir ki, özünütəhsil insanın yüksək forma idraki tələbatlarını, maraqlarını ödəyir, motivlərin güclü təsiri altında yüksək şüurlu təşkilatçılığa əsaslanır, insanın həyatı gerçəkləşir və mövcudluğa olan münasibətini göstərir. Özünütəhsil – müstəqil idraki fəaliyyətdir və subyektiv biliklərin əldə olunmasına yönləndirir.

V.P.Bandarenkonun fikrincə özünütəhsil elə bir prosesdir ki, burada biliklərin mənimsənilməsində şəxsi və əqli keyfiyyətlər əldə edilir və bacarıqlar formalaşır. Ən başlıcası da odur ki, bu proses şəxsiyyətin öz tərəfindən idarə olunur və standart təhlil prosesindən çox fərqlidir (3, 45-51).

A.M.Matyuşkin qeyd edir ki, özünütəhsil prosesinə hazırlıq – şəxsiyyətin ən mürəkkəb keyfiyyətlərindəndir. Bu strukturda bir sıra komponentləri göstərmək olar: məqsədyönlülük səviyyəsi, özünütəhsil fəaliyyətinə tələbatın dərki, onun motivləri, peşəyə dair bazanın (əqil, bilik) olması, özünütəhsil prosesinə dair bilik və bacarıqlar, ozünütəhsilin mənbə və üsullarına münasibət, təhsil fəaliyyətinin təşkilində müstəqilliyin olması. Özünütəhsil məqsəd, ideya, insanın topladığı sosial təcrübə ilə tənzimlənir. (6,30)

“Özünütəhsilin” mahiyyətində M.L.Knyazeva iki fərqli məna gördüyünü vurğulayır:

Özünütəhsil – müstəqil şəkildə biliklərin əldə edilməsi “özünütəhsilin” “özünütəlim” kimi qəbul edilıə bilər.

Özünütəhsil-insanın öz şəxsiyyətini şüurlu şəkildə yaratması, qurması. Müəllif vurğulayır ki, özünütəhsil olmadan, şəxsiyyətin inkişafının təmin edilməsi imkansızdır.(5, 49)

Özünütəhsil – öz şəxsiyyətinin inkişafına dair yaradıcı işdir, biliklərin dərinləşdirilməsi, dünyagörüşünün artırılmasına sövq edəndir.

Müəllif özünütəhsilin əsas funksiyasını göstərir:

Ekstensiv – yeni biliklərin mənimsənilməsi

İstiqamətləndirici – mədəni və cəmiyyət aspektində özünü tapmaq

Konpensasiya baxımından – məktəb təlimində, öz təhsilində mövcud boşluqların doldurulması

Özünüinkişaf – şüurun, təfəkkürün , yaddaşın dünya haqqında olan təsəvvürlərin təkmilləşdirilməsi

Metodoloji – dünya haqqında təsəvvürlərin genişlənməsi, peşə səriştəsinin artırılması

Kommunikativ – elmi, peşə sahələri, yaş səviyyələri arasında əlaqələrin yaradılması

7.Yaradıcılıq-yaradıcılıa işinin diapozonunu genişləndirilməsi, daimi yaradıcı axtarışlar.

8.Gəcləşmənin təmin edilməsi – zamanla ayaqlaşmaq, günün tələblərinə uyğun təfəkkür formalaşdırmaq, şagird mövqeyinin daim nəzərə alınması

9.Psixoloji-reallıqla ayaqlaşmaq bəşərin intellektual inkişafının axınında özünü hiss etmək.

“Özünütəhsil dedikdə müstəqil, məqsədli fəaliyyət, sistemli idraki fəaliyyət nəzərdə tutulur ki, bu da şəxsiyyətin nailiyyətlərinə yaxud cəmiyyətin təhsil ehtiyaclarının ödənilməsinə yönəlmiş bir prosesdir”, deyə tədqiqatçı Q.M.Kocasperova vurğulayır. (4,69)

Özünütəhsil - əqli və dünyagörüşünün formalaşdıran özünütərbiyə sistemidir. Tədqiqatçı maraqlı yanaşmalar göstərir. O, qeyd edir ki, özünütəhsilə iki istiqamətli yanaşmaların olması mütləqdir. İnsanın yaşadığı ömür boyunca əldə etdiyi təcrübə onun üçün

özünüinkişaf və özünütəhsilin mənbəsi olur. Burada bu anlayışlar sinonim kimi çıxış edir. Digər bir tərəfdən müəllifə görə özünü təhsil xüsusi təşkil edilmiş müstəqil, sistemli idrak fəaliyyətidir. Bu fəaliyyət şəxsi və yaxud ictimai əhəmiyyət kəsb edən təhsilin məqsədlərinə xidmət etməlidir.

Tədqiqatçı M.L.Knyazeva maraqlı mövqe nümayiş etdirmişdir. Ona görə özünütəhsil - mədəni təhsilli bir insanın həyat tərzidir və daimi onu müşahidə etməlidir (bir ömürboyu).

Aktiv sistemli idraki fəaliyyət prosesində özünütəhsil çoxşaxəli hadisə olaraq tələbdən doğur. Sosial mühit özünütəhsil üçün lazımı obyuektiv şəraiti yarada bilər.

Özünütəhsilə təsir göstərən xarici amillərə pedaqoji elmdə aşağıdakı münasibət bildirilmişdir:

Kitablar, dövrü mətbuat, distant təhsil.

Kurslarda və dərnəklərdə alinan lazımı bilik və bacarıqlar.

Müxtəlif təhsil sahələrində çalışmaqla, həmin sahəyə dair informasiyanın alınması.

Ətraf gerçəklik: müəyyən çərçivədə baş verən hadisələr, ünsiyyətdə olduğumuz insanlar.

Maraq dairəsi-hobbi, xüsusi qabiliyyətlər.Bu halda insanın dünyagörüşü zənginləşir, hər hansı bir fəaliyyət növündə əldə etdikləri özünütəhsilə hazırlıq kimi qəbul olunur.

6.Özünütəhsilin mahiyyəti idraki fəaliyyətim təmin edilməsinin nəticəsində göstərir. Bu sahədə işin düzgün alqoritminin qurulması, biliklərin təkmilləşdirilməsində, optimal seçimlərin edilməsi, müstəqil proqramların tərtibinə köməklik edir.

Özünütəhsillə bağlı proqramlar insanda dünyagörüşünün dərinləşdirilməsini və biliklərin zənginləşdirilməsini təmin edir. Proqramın düzgün tərtibatı, reallıqların nəzərə alınması ilə optimal seçimlərin nəticəsində ardıcıl, rasional müstəqil işin qurulmasına müvəffəq olmaq mümkündür.

Hər hansı bir elm sahəsi və yaxud yaradıcılıq sahəsinin mükəmməl öyrənilməsi sistemli şəkildə özünütəhsilin təşkilini tələb edir. Öyrənilən, tədqiq edilən sahə ilə bağlı sualların və parametrlərin düzgün seçilməsi şərtlərdən biridir. Baxmayaraq ki, özünütəhsil individual xarakter daşıyır, ona kortəbii proses kimi baxmaq olmaz. Çünki özünütəhsillə bağlı fəaliyyətin mahiyyətində konkret məqsədlər durmalıdır. Təcrübə göstərir ki, konkret olaraq seçilmiş sahəyə dair məqsəd, ona gedən yol, strategiyalar dəqiq müəyyənləşməlidir. Təbii ki, burada inteqrativ xarakterli işləri də inkar etmək olmaz. Çünki hər hansı bir sahə tədqiq olunduğu zaman digər elm sahələrinə mütləq inteqrasiya labüddür.

***Ədəbiyyat***

Təlim motivləri. 07.02. 2017 https://chalkhanmammadov.wordpress.com/2017/02/07/t%C9%99lim-motivl%C9%99ri/

Rüstəmov F. Humanist pedaqogika: problemlər, perspektivlər. Azərbaycan müəllimi.-2017.-20 yanvar.-№2.-S.9

Бондаренко В.П. Влияние направленности личности на самообразование старшеклассников // Самообразование школьников и развитие их личности. Волгоград: ВГПИ, 1978. - С.45 - 51.

Коджаспирова Г.М. Культура профессионального самообразования педагога. М., 1994. - С.69.

Князева М.Л. Ключ к самосозиданию. М.: Молодая гвардия, 1990. С .49.

Матюшкин А.М. психологические принципы готовности к самообразованию /Психолого-педагогические проблемы непрерывного образования: материалы симпозиума. М.: НИИ СИМО АНН СССР. 1980. - С. 30.

## АНАЛИЗ САМООБРАЗОВАНИЯ С РАКУСА ПЕДАГОГИЧЕСКОЙ ПРОБЛЕМЫ

***Байрамова Зияфат Вилаят кызы, Абдуллаева Шахана Арзу кызы***

***Резюме***

XXI век был охарактеризован как эра информационных технологий. Главное требование к студенту - не получать информацию из разных источников. Здесь важно приобретать самостоятельные знания.

Получение учащимся социального опыта прошлого сегодня противоречит самоутверждению личности в современных условиях. Поэтому одна из главных задач модернизации современного образования - это формирование личности-самоучки, способной полностью понимать новый мир и условия, идти в ногу с законами и законами природы. Новые задачи требуют не только непрерывного образования, но и навыков самообразования.

Самовоспитание - выступает как высокий уровень самопрезентации личности. Здесь адекватно раскрываются физические и духовные силы человека. Это вид деятельности, при котором саморазвитие человека не только обеспечивает духовную безопасность, но и создает материальные ценности, имеющие субъективное значение.

## ANALYSIS OF SELF-EDUCATION AS A PEDAGOGICAL PROBLEM

***Bayramova Ziyafat Vilayat , Abdullaeva Shahana Arzu***

***Summary***

The 21st century has been characterized as the era of information technology. The main requirement for a student is not to receive information from different sources. It is important to acquire independent knowledge here.

The receipt by students of the social experience of the past today contradicts the self-affirmation of the individual in modern conditions. Therefore, one of the main tasks of modernizing modern education is the formation of a self-taught personality capable of fully understanding the new world and conditions, keeping pace with the laws and laws of nature. New tasks require not only lifelong education, but also self-education skills.

Self-education - acts as a high level of self-presentation of the individual. Here the physical and spiritual powers of a person are adequately revealed. This is a type of activity in which the self-development of a person not only ensures spiritual security, but also creates material values that have subjective significance.

***Rəyçi: dos. A.İ.Quliyev***

***Təhsilin pedaqogikası və metodikası kafedrasının 11.12.2020-ci il tarixdə (pr.№4) online keçirilmiş iclasında təsdiq edilmişdir.***

***Daxil olduğu tarix13 dekabr 2021-ci il***

**UOT:37.**

## MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN ŞƏXSIYYƏTININ FORMALAŞDIRILMASI MƏSƏLƏLƏRI

***Məmmədtağıyeva Gövhər Arzuman qızı***

***BDU Qazax filialının müəllimi***

***govharmammadtagiyeva@gmail.com***

**Xülasə:** *Müasir dövrdə məktəbəqədər təhsil müəssisələrində hərtərəfli inkişaf etmiş şəxsiyyət kimi tərbiyə etmək, yeni insan yetişdirmək mühüm vəzifədir. Belə bir vəzifəni yerinə yetirmək üçün uşaq bağçalarında qabaqcıl pedaqoji kollektivlər mövcud imkanlardan*